# Ukraynada Azərbaycanın Zəfərinə və "Konstitusiya və Suverenlik İli"nə həsr olunan poçt markası hazırlanıb

**Ukraynada Azərbaycanın Zəfərinin 5 illiyinə və "Konstitusiya və Suverenlik İli"nə həsr olunan poçt markası hazırlanıb.**

AZƏRTAC xəbər verir ki, ölkəmizin Ukraynadakı səfirliyi tərəfindən hazırlanan bir neçə növ poçt markasında Azərbaycanın işğaldan azad olunan rayonlarının təsvirləri, üçrəngli dövlət bayrağının təsvirində Azərbaycanın xəritəsi yer alıb.

Yüksək nəfisdə və tərtibatda hazırlanan poçt markalarının sayı 1000 ədəddir. Poçt markaları gələn il yanvarın sonundan dövriyyəyə buraxılacaq.

Azərbaycan.- 2025.- 30 dekabr (№274).- S.19.